# Gizli düşmənlə mübarizə davam edir

**Tarixi qələbədən dərhal sonra işğaldan azad edilən torpaqlarda minaların təmizlənilməsinə başlanılıb və gizli düşmənə qarşı bu çətin, eyni zamanda təhlükəli axtarış xilasetmə işləri uğurla davam etdirilir. Minaaxtaranlar işğaldan azad edilən ərazilərdə tank və piyada əleyhinə olan minaları aşkar edir, ölümsaçan minaları zərərsizləşdirirlər.**

Mənfur düşmən 30 ilə yaxın işğalda saxladığı rayonlarda nəinki bütün binaları, bütün tarixi abidələri, yolları dağıdıb və eyni zamanda, hər tərəfi minalayıb. Özü də təkcə təmas xəttinə yaxın olan əraziləri deyil, şəhərləri, yolları, önəmli strateji yüksəklikləri də minalayıblar. Düşmən acı məğlubiyyətinin heyfini bu yerlərə qayıdacaq sakinlərdən çıxmaq istəyib. Dinc insanları minalarla məhv etmək isə yalnız erməni xislətidir, düşmənin mənfurluğunun bariz nümunəsidir. Məlum olduğu kimi, yurd həsrətinə dözə bilməyən bir neçə nəfər mülki şəxs ermənilərin basdırdığı minaların qurbanı olub. Öz peşə fəaliyyətini Kəlbəcər rayonunda yerinə yetirən zaman iki jurnalist və bir nəfər mülki şəxs, o cümlədən inşaatçılar, dinc insanlar da minaya düşərək həlak olublar.

Düşmənin torpaqlarımıza basdırdıqları minaları zərərsizləşdirmək üçün artıq bir il səkkiz aydır ki, sözün əsl mənasında, ciddi mübarizə aparılır. Ardınca isə azad edilən rayonlarda iri infrastruktur layihələrin icrası davam etdirilir. İlkin layihələr həyat əhəmiyyətli sahələri, yol, enerji, su və başqa zəruri sahələri əhatə edir.

Hazırda minaaxtaranlar ikinci dərəcəli yolların, su xətlərinin, kanalların, kənd təsərrüfatı təyinatlı ərazilərin minalardan təmizlənməsi işlərini həyata keçirirlər.




Qeyd edək ki, Azərbaycanda minatəmizləmə agentliyi 1998-ci il iyul ayının 18-də yaradılıb. Prezident İlham Əliyevin 2021-ci il 15 yanvar tarixli Fərmanına əsasən Azərbaycan Respublikası Ərazilərin Minalardan Təmizlənməsi üzrə Milli Agentliyin əsasında publik hüquqi şəxs statuslu respublika Minatəmizləmə Agentliyi ötən müddət ərzində kifayət qədər böyük işlər görüb.

Belə ki, İkinci Qarabağ müharibəsindən sonrakı dövrdə ümumilikdə 36 min hektar ərazi minalardan və partlamamış hərbi sursatlardan təmizlənib. 61 mindən çox mina və partlamamış hərbi sursat, improvizə olunmuş qurğular, tələ minalar və sair sursatlar aşkarlanaraq zərərsizləşdirilib. Bunlara həm əl, həm də mexaniki minatəmizləmə maşınları, eləcə də itlərlə aparılan minatəmizləmə əməliyyatları daxildir.

Ərazilərdə minatəmizləmə işləri bir neçə üsulla aparılır. Bir qrup mütəxəssis xüsusi dedektorlar vasitəsilə işləyir. Bundan başqa, zolaqların açılması üçün uzaqdan idarə olunan minatəmizləmə texnikaları çalışır. Burada tank, piyada əleyhinə mina, hətta müxtəlif yerlərdə xüsusi asılmış minalar aşkarlanır. Mütəxəssislər tank əleyhinə minanın üstündə piyada əleyhinə mina basdırılması hallarına rast gəlindiyini də bildirirlər. Hətta bir minanın yanında üç minanın basdırılması da qeydə alınıb.

ANAMA-nın iyul ayı üzrə məlumatında bildirilir ki, minalardan təmizlənən ərazilərdə 578 piyada, 105 tank əleyhinə, 1028 partlamamış hərbi sursat zərərsizləşdirilib. Azərbaycan Respublikasının Minatəmizləmə Agentliyinin (ANAMA) işğaldan azad edilmiş ərazilərdə icra olunan minatəmizləmə əməliyyatları barədə həftəlik məlumatında bildirilir ki, avqustun 1-dən 6-dək Tərtər, Ağdam, Şuşa, Xocavənd, Füzuli, Qubadlı, Cəbrayıl və Zəngilan rayonlarının ərazilərində aparılmış minatəmizləmə əməliyyatları zamanı piyada əleyhinə 204, tank əleyhinə 32 mina və 29 ədəd partlamamış hərbi sursat aşkarlanaraq zərərsizləşdirilib. Həftə ərzində 697 hektardan çox ərazi mina və partlamamış hərbi sursatdan təmizlənib.

Göründüyü kimi, düşmən öz mənfur xislətinə uyğun olaraq torpaqlarımızı başdan-başa zəhərləyib, hər tərəfdə ölümsaçan minalar basdırıb. Biz bir düşmənlə iki cəbhədə döyüşməyə məcbur olmuşuq. Müharibəni qələbə ilə başa vursaq da, düşmənin torpaqlarımıza basdırdıqları minaları zərərsizləşdirmək üçün artıq bir il səkkiz aydır ki, sözün əsl mənasında, ciddi mübarizə aparılır. Ölümsaçan minaların təmizlənməsi üçün minaaxtaranlar əsl peşəkarlıq nümayiş etdirir, səbirlə, dözümlə təhlükəli və xeyirxah missiyanı yerinə yetirirlər.

**Salman ALIOĞLU,**
**"Respublika".**

Respublika.- 2022- ci il.- 11 avqust.- S. 3.